**UOT 82-31**

# CON STEYNBEKİN YARADICILIĞINDA İNSAN VƏ CƏMİYYƏT PROBLEMİ

***(“Siçanlar və adamlar” və “Xrizantemlər” əsərləri əsasında)***

**Şükufə ŞÜKÜRLÜ***

Məqalə redaksiyaya daxil olmuşdur: 7 aprel l 2025; çapa qəbul edilmişdir: 14 iyul 2025; online-da çap edilmişdir: 23 sentyabr 2025.

Received: 7th of April, 2025; accepted: 14th of Jule, 2025; published online: 23th of September, 2025.

**Açar sözlər:** *Con Steynbek, insan və cəmiyyət, sosial təbəqələşmə, irqçilik, gender bərabərsizliyi*

## Giriş

Amerikalı yazıçı Con Steynbek XX əsrin tanınmış ədiblərindən biri hesab olunur. Onun “Qızıl kasa”, “Qəzəb salxımları”, “Batmış ay”, “Azmış avtobus”, “Çarli ilə Amerika səyahəti”, “Mirvari”, “Cənnətdən şərqə doğru”, “Narazılığımızın qışı”, “Siçanlar və insanlar”, “Xrizantemlər” və s. əsərləri yazmışdır. C.Steynbek bu əsərlərində sosial təbəqələşmə, irqçilik, müharibə, mənəvi tənəzzül və digər mövzuları əks etdirməklə insan və cəmiyyət arasındakı mürəkkəb münasibətləri ustalıqla təsvir etmişdir.

Onun yaradıcılığında cəmiyyətdəki sosial problemlər, işsizlik, maddi sıxıntılar, evlilik və torpaq sahibi olmaq kimi mövzular mərkəzi yer tutur. “Siçanlar və insanlar” və “Xrizantemlər” əsərləri Steynbekin insanın cəmiyyətdəki yerini və bu münasibətlərin yaradacağı çətinlikləri necə təsvir etdiyini əks etdirən ən mühüm nümunələrdəndir. Amerikalı Nobel mükafatı laureatı olmuş yazıçının bu əsərlərinə nəzər salsaq, gözlərimiz önündə böyük hərflərlə “İnsanşünaslıq” kəlməsi yazılar. O hər bir obrazını böyük məharətlə ölçüb biçərək daxili duyğularını və hisslərini uğurla oxucularına təqdim etməyi bacarmışdır. C.Steynbek həm “Siçanlar və Adamlar”, həm də “Xrizantemlər” əsərlərində insanın cəmiyyətdəki yerini və bu münasibətlərin yaratdığı çətinlikləri təsvir etməyi bacarmışdır. Onun əsərlərindəki obrazlar cəmiyyətin kənara atdığı və sosial təzyiqə məruz qalan fərdləri simvolizə edir. Steynbek insanın daxili dünyasına dərinləşdirilmiş bir baxış təqdim edərək cəmiyyətin müxtəlif təbəqələrinin və onun sosial problemlərinin ağırlığını oxucularına çatdırır. Bu əsərlər oxucuda yalnız sosial məsələlərə dair anlayış yaratmır, eyni zamanda, insanın mənəvi mübarizəsini və cəmiyyətin fərdlərə qarşı olan münasibətini araşdırmağa imkan verir. 1962-ci ildə Nobel mükafatı təqdimatı mərasimində C.Steynbek tarixi nitqində belə söyləmişdir:

“Böyük günahlarımızı və dərdlərimizi açıb göstərmək yazıçının borcudur. Yazıçı bunun üçün məsuliyyət daşıyır. Bundan başqa, yazıçıya insan gücünü, onun qəlbinin və ruhunun böyüklüyünü – puç olmuş arzu və ümidlərini, cəsarət, mərhəmət və sevgi uğrundakı fədakarlığını göstərmək və vəsf etmək haqqı verilmişdir” [6, s. 7].

* *magistrant, Bakı Avrasiya Universiteti*
*e-mail:* shukufa.shukurlu95@gmail.com
**https://doi.org/10.30546/25194011.2025.14.4.042**

**1. "Siçanlar və insanlar" əsərində insan və cəmiyyət**

İlk olaraq yazıçının "Siçanlar və insanlar" povestinin xırdalıqlarına nəzər salsaq, burada ziddiyyətlərin və qarşıdurmaların şahidi olarıq. "Siçanlar və insanlar" əsərində Steynbek Corc və Lenni adlı iki dostun həyatını və mübarizəsini təsvir edir. Lenni fiziki cəhətdən güclü, amma əqli cəhətdən zəif bir insandır. Corc isə ona qayğı göstərir və onu qorumağa çalışır. Bu əsər işçi sinfinin cəmiyyət tərəfindən necə təzyiq altında saxlanıldığını və marginal vəziyyətdə olan fərdlərin qarşılaşdığı çətinlikləri çox açıq şəkildə ortaya qoyur. Əsərdə diqqət çəkilən başqa bir məsələ də cəmiyyətdən kənarlaşdırılmış insanların tənhalığıdır.

Əsər iki dostun varlığı ilə başlasa da, nəticədə dostlardan biri digərini, o böyük "dostluqlarını" məcbur nişan alaraq silahla güllələməklə hər şeyi məhv edir. Orada təkcə dostluq yox, onların arzuları, xəyalları, keçmişlərindəki xatirələr də güllələnir. Bu dostluq faciəsini bilənlər qəhərin içində boğula-boğula susurlar, digərləri isə (Kurley və başqa obrazlar) bu hadisəyə bir məna yükləmədən həyatlarına davam edirlər.

Ümumiyyətlə, hər bir obrazın düşüncəsi ilə əsərin gedişatını izlədikcə olacaq və olmayacaq hadisələrin zaman baxımından ardıcıllığına haqq qazandırmaq olur. Əsərin ən faciəvi həyata sahib obrazı sağlamlığında qüsur olan zavallı Lennidir. Onun ağıldankəm olmasına baxmayaraq, onun tək istəyi rahat, gözəl, xoşbəxt yaşamaqdır. Bu xoşbəxtliyi ona yaşadan hər zaman yanında olan dostu Corcdur. Onlar birlikdə hərəkət edərək hədəfə çatmaq arzusu ilə çırpınırlar. Lenninin qüsuru Corcu yorsa da, o bu qüsuruna doğma yanaşır. Onu həm danlayır, həm də əsərin sonuna qədər qorumaq istəyir. Böyük təəssüflə də olsa, onu əli silahlı halda başqası yox, məhz öz əli ilə öldürərək, başqalarından "qoruyur".

Fiziki qüsurlu insanlara köməklik edə bilmək üçün hər şeydən əvvəl qüsurlu insanların psixologiyasını bilmək lazımdır. Onların hansı hərəkətdən, davranışdan xoşları gəlib-gəlmədiyini bilmədən, yəni onların dünyasını tanımadan fiziki qüsurlu insanlara köməklik etmək çox çətindir. Aşağıdakı sualları araşdıraq: Fiziki qüsurlu insanlar özlərini cəmiyyət içində necə hiss edirlər? Özlərini fərqli bir psixologiya içində, yoxsa normal insan kimi hiss edirlər? Fiziki qüsur – bu sözə diqqət yetirdikdə, normal bir insanın şəxsi və sosial həyatında görməli olduğu işləri doğuşdan və yaxud sonradan qazanılan fiziki narahatçılıq səbəbindən edə bilməməsidir. İnsanın yaşadığı bu əksiklik fiziki və psixoloji çətinlik yaşamasına səbəb olur [5, s.1].

Fiziki cəhətdən sağlam insanı belə psixoloji cəhətdən təhqir eütmək o qədər çətin deyil, o ki qala fiziki qüsurlu insanları. Amma az da olsa, fiziki qüsurlu insanların bəziləri özlərində güc tapır, cəmiyyətin onları inteqrasiya edəcəyini gözləmir, əksinə, özünü ictimaiyyətin bir fərdi olaraq meydana qoya bilir [10, s. 1].

Yazıçı bu əsərində həm də irqçiliyin cəmiyyətdə yaratdığı ayrı-seçkiliyə toxunaraq Qozbel Mehtər (Zənci) obrazının dilindən hər şeyi açıq-aşkar deyir. Hətta bu ayrı-seçkiliyi o dərəcədə qəbul edib ki, ilk başda qaldığı otağına Lenninin girməyinə icazə vermək istəmir. Çünki onun qəlbində yaşadığı cəmiyyətə qarşı qorxu və nifrət formalaşmışdır. Əsərin həmin hissəsinə nəzər salsaq, irqi ayrı-seçkiliyi qəbul etmiş zəncinin sözlərlə üsyanına şahid ola bilərik:

*"-Mənim otağıma girməyə sənin ixtiyarın yoxdur. Bura mənim otağımdır. Məndən başqa bura heç kəs girə bilməz.*

*Lenni tüpürcəyini uddu və onun təbəssümü heç yerinə düşmədi:*

*- Mən elə-belə gəldim ki, küçüyümü görüm. Baxdım buradan işıq gəlir.*

*- İşığı yandırmağa ixtiyarım çatır. Çıx, get, mənim otağımdan. Məni baraka buraxmırlar, mən də bura heç kəsi qoymuram!*

*- Sizi niyə buraxmırlar? – deyə Lenni soruşdu.*

*- Çünki mən zənciyəm. Özləri kart oynayır, məni qoymurlar oynamağa. Zənciyəm axı. Deyirlər ki, məndən iy gəlir. Əslinə qalsa, özləri məndən daha dəhşətli iy verirlər"* [8, s. 89].

Sonradan Kurleyin arvadı ilə zəncinin dialoqunda da bunu görmək mümkündür. Qız ranço sahibinin gəlini olmasından, öz mülkədar olmasından rahat istifadə edərək ona və digər işçilərə qarşı istədiyi şəkildə davranmaqla hər birinin onlardan asılı olduqlarını xatırladır. Lakin qızın özündən əmin şəkildə rəftarı çox çəkmədiyini hadisələrin irəliləyən addımlarında görmək olur. O, özü də sanki əri Kurley ilə ailə qurmaqla onun əsarəti altına düşüb və buna peşmandır. Onun Kurleyi sevmədiyini Lenni ilə dialoqunda obrazın dilindən deyilənlərdən aydın anlamaq olur. Onun da vaxtı ikən Lenni, Corc və digər məsum obrazlar kimi öz arzuları, xəyalları və ümidləri olubmuş. Əsərin əvvəllərində Steynbek bu qızı xoşagəlməz biri kimi qələmə versə də, sonlarda obrazın iç dünyasını qızın nitqi ilə oxucuya təqdim edir. Buradan anlayırıq ki, hər kəs əslində öz mənəvi dünyasında zavallı və yazıq kəsdir, hətta Kurley (Qıvrımsaç) də. O özünü oradakı işçilərə güclü göstərsə də, sağlamlığında problem olan, qüsurlu, ağıldankəm Lenni ilə savaşında onun əlinin qırılması və çökməsi onu daha da axmaq hala salır. Ranço sahibinin oğlu olduğuna görə ordakı işçilər onunla çox da söz güləşdirə bilmirlər. Çünki hər kəsin fikri rahat qazanc və öz arzularını gerçəkləşdirmək idi. Bu arzuların gerçəkləşməsi bu təsərrüfatda bir az qəliz məsələ idi. Bunu əsərdə həm Qozbel Mehtərin (zəncinin), həm Kurleyin (Qıvrımsaçın) arvadının dilindən də deyildiyini görürük.

Bu əsərin acınacaqlı obrazlarından biri olan qoca Plümün və öldürülən qocalmış itinə qarşı olan sadiqliyindən də bəhs etmək olar. Burada hər iki canlı – biri insan, digəri heyvan olsa da, onlar da dostluğu təmsil edirlər. İtin öldürülməsindən bərk sarsılan Plümü əsərin finalında olan hadisənin qəhrəmanı Corc ilə yanbayan qoysaq, əsərin əsl ideyası bütün oxuculara aydın və şəffaf şəkildə gözlər qarşısında canlanar və yazıçının oxucuya çatdırmaq istədiyi əsl məqsədi görmüş olarıq. Corc da Lennini çox uzun zamandan bəri tanıyır və onlar ayrılmaz qüvvə olduqlarını düşünürdülər. Düşüncələri ümidləndirən xəyallar bir andaca yox oldular. Orada nə dostluqdan səs-soraq gəldi, nə də xəyallardan. Əsərin sonunda da elə Corc və Plümün vəziyyətinə nəzər salsaq, onların faciəsini "sadiqliyin matəmi" adlandıra bilərik.

Bu fərqli obrazlar cəmiyyətdəki sosial təbəqələşmənin müxtəlif tərəflərini və bu təbəqələr arasında yaranan qarşıdurmaları nümayiş etdirirlər.

## 2. "Xrizantemlər" əsərində insan və cəmiyyət

Steynbekin "Xrizantemlər" əsəri insan və cəmiyyət arasındakı mürəkkəb münasibətləri analiz etdiyi əsərlərindən biridir. Yazıçı bu əsərdə yaratdığı üç obrazla (ər, arvad və yad adam) insanın daxili dünyasını və cəmiyyətin bu dünyaya müdaxiləsini ustalıqla təsvir etdir.

Henri Allen fermada işləyir, arvadı Elisa Allen isə evin ətrafında bitkilər və çiçəklər əkib becərməklə məşğuldur. Sonradan uzaq bir yerdən gəlmiş yad adam yolunu azdığına görə təsadüfən onların evinə yaxın bir yerdə dayanmalı olur. O, qayçı və bıçaq itiləyir, sınmış və zədələnmiş qazanları təmir etməklə bütün gününü çöllərdə keçirən bir kəsdir. Özünün dediyindən anlaya bilərik ki, onun getməyə yeri-yurdu yoxdur. O, yalnız bütün yaşayışını sürdüyü furqonda keçirir. Özünün həm zəhmətkeş, həm də yorucu həyat sürdüyünü Elisa ilə dialoqunda deməklə qadının fikirlərində dərin düşüncələr yaradır. O, elə bir düşüncələrdir ki, qadın öz varlığının sualları altında can çəkişməyə başlayır. Əsərdə Elisanın yad kişiyə sərt cavabında: *"Sizinlə rəqabət aparan adam olsaydı, təəccüblənərdiniz. Mən də qayçı itiləyə bilərəm. Balaca qazanların əzik yerlərini döyüb düzəldə bilərəm. Qadının nəyə qadir olduğunu sizə göstərə bilərəm"* [9, s. 5] deməklə

düşüncələrində yaranmış rəqabəti aydın görmək olur. O, yad adama öz qadın işgüzarlığını sanki sübut etmək üçün əlindən gələni edir. Hətta qadın tez əl-ayağa düşərək ona zəhmətinin bəhrəsi olan xrizantemlərdən verir.

Elisanın əri Henri Allen ilə olan münasibətləri cəmiyyətdəki gender bərabərsizliyi və qadınların bu problemlə bağlı necə təzyiqə məruz qaldığını əks etdirir. Elisa özünü həm güclü, həm də xoşbəxt hiss etməyə çalışır, lakin onun arzuları sosial məhdudiyyətlər və cəmiyyətin təzyiqi ilə qarşılaşır.

Yad adamla tanışlıq və bu şəxsə olan maraq Elisanın həyatında bir dəyişiklik və özünüifadə etmə imkanı yaradır. Yad adamın ona xrizantemlər barədə göstərdiyi maraq Elisanın özünə inamını artırır, amma bu inam daha sonra yenidən sarsılır.

Elisanın şəhərə getmə və orada şərab içmə arzusunun ardında cəmiyyətin ona qoyduğu sərhədlərdən azad olmaq istəyi dayanır.

C.Steynbekin bu əsərinin əsas mahiyyətinə nəzər salsaq, Ernest Heminqueyin “Yağış altında pişik balası” hekayəsini xatırlayarıq. Bu hekayələrin hər biri ilk baxışda sadə süjetlərə malikdir, lakin bu sadəlik hekayələrin arxasında gizlənən dərin mənalarla ziddiyyət təşkil edir. Hər iki əsərdə hadisələr gündəlik həyat fonunda baş verir, lakin müəlliflər bu adi situasiyaların içində qadınların daxili dünyasını, onların susqun iztirablarını və həyata dair arzularını incəliklə açmağa çalışırlar. Oxucuya təqdim olunan qadın obrazları – Heminqueydəki naməlum amerikalı qadın və Steynbekdəki Elisa – eyni zamanda həm güclü, həm də qırılacaq qədər həssas bir mövqedə dayanan qadınları təmsil edirlər.

Hər iki qadın obrazı real dünyada görünməyən, lakin onların içində baş verən emosional və psixoloji proseslərin daşıyıcısıdır. Heminqueyin qadını sadə bir arzudan – pişik balasından danışır, lakin bu pişik əslində onun ailə həyatında və münasibətlərində çatışmayan istiliyin, sevginin, diqqətin və anlayışın rəmzidir. Qadının əri bu arzunu ciddiyə almır, onu susaraq qarşılayır. Bu isə qadının gündəlik həyatında nə qədər laqeydliklə üzləşdiyini göstərir. Steynbekin hekayəsində isə Elisa görünüş baxımından güclü, özünə güvənən və işləməyə, yaradıcılığa meylli bir qadındır. Lakin onun bu gücü cəmiyyətin müəyyən etdiyi sərhədlər içində boğulur. O, çiçəklərinə – xrizantemlərinə böyük diqqətlə yanaşır, onları qoruyur və sevir. Bu çiçəklər Elisanın iç dünyasının simvoluna çevrilir.

Oxşarlıq ondan ibarətdir ki, hər iki qadın öz həyat yoldaşları tərəfindən psixoloji baxımdan anlaşılmır. Onların hər biri nəyisə arzulayır, lakin bu arzular sözlə deyil, işarə ilə ifadə olunur. Heminqueyin qəhrəmanı pişiyə, Steynbekin qəhrəmanı isə çiçəklərə sığınıb daxili ehtiyaclarını çatdırmağa çalışır. Lakin sonda hər iki qadın emosional məyusluqla üzləşir. Elisa arabaçı ilə danışdıqdan sonra içində bir ümid oyanır – onun qadınlığının, duyğularının nə vaxtsa dəyərləndiriləcəyinə dair bir hiss doğur. Ancaq arabaçının çiçəkləri atdığını gördükdə bu ümid darmadağın olur. Elə Heminqueyin qadını da pişiyi tapmır, yaxud heç tapa bilməyəcəyini anlayır. Onların arzuları nə qədər kiçik və sadə görünürsə görünsün, əslində bu istəklər həyatdakı daha böyük çatışmazlıqların – sevgi, qəbul edilmə, azadlıq, qadın kimi dəyərləndirilmə ehtiyaclarının əlamətidir.

Hər iki hekayədə sakit və emosional təcrid olunmuş mühit hökm sürür. Havanın yağışlı olması, səssizlik, hərəkətsizlik – bütün bunlar qadınların ruh halını əks etdirir. Heminqueyin minimalizmi ilə Steynbekin simvolizmi bir nöqtədə qovuşur: hər iki yazıçı oxucuya birbaşa demədən, simvol və işarələrlə qadınların daxili iztirablarını, cəmiyyətin onları necə məhdudlaşdırdığını göstərir.

Əlavə olaraq, gender mövzusu da hər iki hekayənin əsas xəttini təşkil edir. Hekayələrdəki qadınlar özlərini sadəcə evdarlıq və ya ailə daxilindəki rol ilə məhdudlaşdırmaq istəmirlər. Onlar həm də bir fərd kimi tanınmaq, öz bacarıq və arzularını həyata keçirmək istəyirlər. Lakin onların qarşısında dayanan sosial və ailəvi çərçivələr bu arzu-

ların reallaşmasına imkan vermir. Heminqueyin qadını ərinin laqeydliyi ilə, Steynbekin qadını isə cəmiyyətin gözləntiləri ilə qarşı-qarşıya qalır.

Nəticə etibarilə, bu iki hekayə müxtəlif müəlliflər tərəfindən yazılsa da, eyni mövzulara toxunur: qadının özünü tapmaq ehtiyacı, azadlıq arzusu, anlaşılmaq istəyinin ifadəsi və bu istəklərin reallıqla toqquşması. Hər iki yazıçı qadın psixologiyasına və cəmiyyətin yaratdığı gender rollarına bədii yanaşma ilə toxunaraq oxucunu düşündürür və öz qəhrəmanlarının içindəki səssiz çığırtıları dinləməyə dəvət edir.

Ümumiyyətlə, qadın obrazı tarixin müxtəlif dövrlərində çox zaman zəif, kövrək və ikinci dərəcəli varlıq kimi təqdim edilmişdir. Cəmiyyətin bu yanaşması ədəbiyyata da sirayət etmiş, yazıçılar bəzən bu stereotipləri ifşa etmək, bəzən isə sadəcə əks etdirmək yolu ilə qadınların sosial vəziyyətinə diqqət çəkməyə çalışmışlar. Con Steynbekin "Xrizantemlər" ("The Chrysanthemums") adlı hekayəsindəki Elisa obrazı bu baxımdan xüsusi diqqətə layiqdir. Müəllif Elisanın daxili dünyasını, onun arzu və hisslərini olduqca incəliklə təqdim etməklə yanaşı, qadın olmağın gətirdiyi məhdudiyyətləri və cəmiyyətin qadına münasibətindəki ədalətsizliyi oxucuya dərin psixoloji təsir bağışlayacaq şəkildə göstərir.

Elisa sadəcə bir qadın obrazı deyil, o, öz dövründə qadınların yaşadığı psixoloji təcridin və sosial məhdudiyyətlərin simvoludur. Onun daxili dünyasında baş verən ziddiyyətlər, azadlıq və dəyər arzusu ilə üzləşdiyi reallıqlar arasındakı uçurum hekayənin əsas xəttini təşkil edir. Steynbek Elisanın bu sarsıdıcı duyğularını və onun yaşadığı psixoloji sarsıntını son dərəcə real və təsirli dillə təsvir edir. Xüsusilə hekayənin sonunda Elisanın səssizcə axan göz yaşları qadının bütün daxili ağrısını, susqunluğunu və cəmiyyət qarşısındakı acizliyini simvolizə edir. Bu səhnə oxucunun duyğularına təsir edir və onu qadının yaşadığı zülmət içindəki yalnızlığı daha dərindən anlamağa sövq edir.

Con Steynbekin təqdim etdiyi qadın obrazı təkcə fərdi bir taleyi əks etdirmir, o, daha geniş bir sosial problemin göstəricisidir. Müəllif bu obraz vasitəsilə cəmiyyətdə qadına münasibətin, onun duyğularına, arzularına və azad seçiminə olan laqeydliyin acı nəticələrini ustalıqla təsvir edir. Hekayə boyunca qadının yaşadığı daxili iztirab, onun haqlı olaraq dilə gətirdiyi istəklərin cəmiyyət tərəfindən susdurulması və şəxsi arzularının kiçildilməsi fonunda müəllifin tənqidi mövqeyi aydın şəkildə hiss olunur. Steynbek burada qadını sadəcə ailənin və ya toplumun bir üzvü kimi deyil, tam hüquqlu bir insan kimi təqdim edir. O, qadının daxili dünyasını bütün təbəddülatları ilə oxucuya çatdıraraq göstərir ki, cəmiyyətin sərt və bəzən qəddar münasibəti insan psixologiyasına necə dərin təsir edə bilər.

Bu kontekstdə Steynbekin məqsədi yalnız bir hadisəni nəql etmək deyil; o, qadınların üzləşdiyi sosial ədalətsizliyi, bərabərsizliyi və onların şəxsiyyət kimi dəyərləndirilməməsini sərt şəkildə tənqid edir. Yazıçının hekayə boyunca yaratdığı emosional gərginlik və qəhrəmanın daxili dünyasının incəliklə təsviri, onun insan təbiətini, xüsusilə də qadın psixologiyasını necə dərindən anladığını nümayiş etdirir. Bu baxımdan, Steynbek yalnız yazıçı yox, həm də cəmiyyətin problemlərinə empatiya ilə yanaşan bir müşahidəçidir.

**Nəticə**

Con Steynbekin yaradıcılığında insan və cəmiyyət problemi xüsusilə sosial təbəqələşmə, cəmiyyətin marjinal qruplarına qarşı münasibət və sosial təzyiqlərin insanların həyatlarındakı təsiri mövzusunda çox dərindən işlənmişdir.

"Siçanlar və insanlar" və "Xrizantemlər" əsərləri vasitəsilə Steynbek, cəmiyyətdəki zəif təbəqələrin təcrid olunmuş halı, sosial ədalətsizliyi və insanların öz daxili dünyalarına sığınaraq yaşadıqları çətinlikləri ustalıqla təsvir edir. Hər iki əsərdə də insanlar arasında ziddiyyətlər, qarşıdurmalar və bu qarşıdurmaların sosial strukturlara necə təsir

etdiyi aydın şəkildə göstərilir.

"Siçanlar və insanlar" əsərində, sosial və psixoloji qüsurları olan fərdlər üzərindəki təzyiq, cəmiyyətdən kənarlaşdırılma, hətta dostluq və qardaşlıq anlayışlarının necə qurban verildiyi özünü açıq şəkildə göstərir. Steynbekin yaratdığı obrazlar vasitəsilə cəmiyyətin kənarlaşdırdığı və tənhalaşdırdığı insanların emosional və psixoloji vəziyyətini dərindən izah edir. Həmçinin, irqçilik və cəmiyyətin özünə yaratdığı sosial təbəqələşmə də mövcud olan böyük bir problem kimi üzə çıxır.

"Xrizantemlər" əsərində isə, cəmiyyətin qadınlara qarşı olan münasibəti, gender bərabərsizliyi və özünüifadə etmək istəyində olan bir qadının qarşılaşdığı sosial sərhədlər ön plana çıxır. Elisa obrazı cəmiyyətin tələbləri və gözləntiləri arasında sıxışmış, həm güclü, həm də zəif hiss edən bir şəxs olaraq təqdim edilir. Steynbekin əsəri gender və sosial cəhətdən məhdudlaşdırılmış bir qadının təcrübələrini dərindən izah edir, eyni zamanda cəmiyyətin həmin qadına tətbiq etdiyi məhdudiyyətlərə qarşı onun fərdi mübarizəsini nümayiş etdirir.

Steynbekin yaradıcılığında ümumiyyətlə insanın və cəmiyyətin münasibəti, sosial strukturların və fərdin qarşısına çıxan çətinliklərin təsviri insan təbiətinin mürəkkəbliyini ortaya qoyur. Onun əsərləri, hər bir obrazın və hadisənin cəmiyyətdəki müxtəlif sosial təbəqələr arasında yaranan gərginlikləri və ziddiyyətləri necə təmsil etdiyini göstərir. Nəticə olaraq, Steynbekin əsərlərində cəmiyyətin fərdlər üzərindəki təsiri, onların bu cəmiyyətdəki yerini tapmağa və öz daxili dünyalarını kəşf etməyə çalışarkən qarşılaşdıqları əngəllər mövzusu açıq şəkildə öz əksini tapır. Steynbekin əsərləri yalnız sosial məsələlərə deyil, həm də insanın daxili dünyasına olan dərin baxışları ilə diqqət çəkir və oxuculara hər bir fərdin həyatında əhəmiyyətli olan mühüm sualları düşünməyə imkan verir.

## ƏDƏBİYYAT


1. Babayev M. Con Steynbek yaradıcılığı Azərbaycan ədəbiyyatı ilə müqayisəli kontekstdə // Azərbaycan məktəbi, 2011, №3, s. 133-140.
2. Əliyeva N. Gender bərabərliyinin hərtərəfli təmini Azərbaycan dövlətinin başlıca məqsədlərindəndir // Azərbaycan, 2010, 5 iyun, s. 5. (http://www.anl.az/down/ meqale/ azer bay can/ 2010/iyun/123733.htm).
3. Əliyeva N. Gender bərabərliyi – insan hüquqlarına yüksək ehtiram ifadəsi // Azərbaycan, 2010, 5 iyun. (http://www.anl.az/down/meqale/azerbaycan/2010/iyun/123733.htm).
4. Heminquey E. Yağış altında pişik balası // Ədəbiyyat qəzeti, 2017, 14 dekabr. (https://edebiyyatqazeti.az/news/proza/1063-yagis-altinda-pisik-balasi).
5. Xəlilov S. İnsan // 525-ci qəzet, 2012, mart 3, s. 18-19. (https://old.525.az/ view.php? lang=az &me nu= 7&id=40041&type=1#gsc.tab=0).
6. Kərimova E. Fiziki qüsurlu insanların psixologiyası. PPC blog, 2017. (http://pcc.az/blog/?p=3858).
7. Paşayev Q. Steynbekin seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2013, 160 s.
8. Vəzir A. Bələdçi kitabçası: İcmamızda genderə həssas layihələrə doğru, 2021, 30 s. (https://www. undp.org/sites/g/files/zskgke326/files/2022-06/Manual%203%20_ Walk through% 20Manual% 20on%20gender-sensitive% 20project% 20in%20communities %2025d9adf824.pdf).
9. Steynbek J. Siçanlar və adamlar. Bakı: Qanun nəşriyyatı, 2021, 89 s.
10. Steynbek J. Xrizantemlər. (https://edebiyyat.az/proza/378-con-steynbek-xrizan tem ler .html).
11. TRT Azərbaycan. Bu iki münasibət onların ruhunu incidir. 2016, 3 dekabr. (https://www.trt.net.tr/azerbaycan/aktual/2016/12/03/bu-iki-munasib-t-onlarin-ruhunu-incidir-622778)

***Резюме***

***Шюкуфе Шюкюрлю***

***Проблема человека и общества в творчестве Джона Стейнбека (На основе произведений «О мышах и людях» и «Хризантемы»)***

В данной статье рассматривается важное значение творчества американского писателя Джона Стейнбека в художественном отражении взаимоотношений между человеком и обществом в литературе XX века. В его произведениях такие темы, как положение личности в обществе, социальная несправедливость, экономические трудности, расизм, гендерное неравенство и отношение к маргинальным группам, представлены как основные мотивы. Простым, но многослойным и насыщенным смыслом языком Стейнбек побуждает читателя не только следить за цепью событий, но и вникать в психологические и социальные причины, стоящие за ними. Писатель мастерски изображает непрекращающуюся борьбу между внутренним миром человека и суровой реальностью общества.

В повести «О мышах и людях» показаны мечты двух сельских рабочих – Джорджа и Ленни, их попытки найти своё место в обществе и то, как быстро эти мечты могут разрушиться. Особенно образ Ленни, непонятого и непринимаемого обществом, является художественным выражением отношения к маргинальным личностям. В рассказе «Хризантемы» критика патриархального общества проводится через образ женщины. Игнорирование эмоциональных потребностей главной героини и обречённость её несоответствующих обществу стремлений раскрывают глубины женской психологии.

Творчество Джона Стейнбека в целом отображает противостояние человека с обществом, внутреннюю дисгармонию личности и её социально-нравственную изоляцию с многогранным и комплексным подходом на художественно-философском уровне. Личные страдания и психологическое напряжение его героев изображаются на фоне противоречивых общественных отношений. Стейнбек показывает, что жёсткие структуры общества, экономическое и социальное неравенство вызывают потрясения в духовном мире человека, превращая его в жертву как общества, так и собственной внутренней сущности. Герои писателя часто сталкиваются с чувством изоляции, непризнания и непонимания, что затрудняет осознание ими своей индивидуальности и приводит к глубокому внутреннему кризису.

С этой точки зрения творчество Стейнбека не ограничивается только реалистическими описаниями, он также анализирует нравственные основы общества, человеческие отношения и гуманистические ценности. Его критическая позиция позволяет охарактеризовать его не просто как реалиста, отражающего социальную реальность, но и как мыслителя, который ставит под вопрос эти реалии, исследует их причины и смотрит на человека через гуманистическую призму. Произведения Стейнбека, обладая глубоким содержанием как в художественном, так и в философско-социологическом плане, продолжают оставаться в центре внимания современной гуманитарной науки.


**Ключевые слова:** *Джон Стейнбек, человек и общество, социальная стратификация, расизм, гендерное неравенство*


***Summary***

***Shukufe Shukurlu***

***The Problem of Man and Society in the Works of John Steinbeck (Based on the Works "Mice and Men" and "Chrysanthemums")***

This article examines the importance of the work of the American writer John Steinbeck in the artistic reflection of the relationship between man and society in the literature of the twentieth century. In his works, such themes as the position of the individual in society, social injustice, economic hardship, racism, gender inequality and attitudes towards marginalized groups are presented as the main motifs. In simple but multilayered and meaningful language, Steinbeck encourages the reader not only to follow the chain of events, but also to delve into the psychological and social reasons behind them. The writer skillfully depicts the ongoing struggle between the inner world of man and the harsh reality of society.

The story "Of Mice and Men" shows the dreams of two rural workers – George and Lennie, their attempts to find their place in society and how quickly these dreams can be destroyed. Especially the image of Lennie, misunderstood and unaccepted by society, is an artistic expression of the attitude towards marginalized individuals. In the story "Chrysanthemums", the criticism of patriarchal society is carried out through the image of a woman. Ignoring the emotional needs of the protagonist and the doom of her non-conforming aspirations to society reveal the depths of female psychology.

John Steinbeck's work as a whole depicts the confrontation between man and society, the inner disharmony of personality and its social and moral isolation with a multifaceted and complex approach at the artistic and philosophical level. Personal suffering and psychological tension of his characters are depicted against the background of contradictory social relations. Steinbeck shows that the rigid structures of society, economic and social inequality cause shocks in the spiritual world of man, turning him into a victim of both society and his own inner self. The writer's characters often face a sense of isolation, unrecognition and misunderstanding, which makes it difficult for them to realize their individuality and leads to a deep inner crisis.

From this point of view, Steinbeck's work is not limited only to realistic descriptions, he also analyzes the moral foundations of society, human relations and humanistic values. His critical stance allows him to be characterized not just as a realist reflecting social reality, but as a thinker who questions these realities, explores their causes, and looks at human beings through a humanistic prism. Steinbeck's works, with their profound content both artistically and philosophically and sociologically, continue to be the focus of contemporary humanities scholarship.

**Key words:** *John Steinbeck, human and society, social stratification, racism, gender inequality*.

Redaksiya heyətinin üzvü fil.e.d., dos. Məmmədova-Kekeç Elmira Fikrət qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.